

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 50-51 (7455-7456) ✲ 1933-cü ildən nəşr olunur ✲ Çərşənbə, 15 noyabr 2017-ci il. ✲ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

**10 noyabr**

Prezident İlham Əliyev Gəncə şəhərinə səfərə edib.

Dövlətimizin başçısı Gəncəyə səfəri çərçivəsində 2x40 meqavat-amper (mVA) gücündə 110/35/10 kilovoltluq (kV) "Yeni Gəncə" yarımstansiyasının, görkəmli dövlət xadimi Əziz Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkının, Mirzə Şəfi Vazeh muzeyinin, "Grand Qafqaz" Ticarət Kompleksinin, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri üçün yeni inşa edilmiş 514 yerlik yataqxana kompleksinin və Dövlət Filarmoniyasının yeni binasının açılışında iştirak edib.

Ölkəmizin rəhbəri İsmət Qayıbov adına Gəncə şəhər 1 saylı tam orta məktəbin binasında aparılan əsaslı təmir və yenidənqurma işlərinin yekunları ilə, "Gəncə Mall" Ticarət Mərkəzində yaradılan şəraitlə, "Majestic Palace" otelinin tikintisi ilə tanış olub.

**8 noyabr**

Prezident İlham Əliyev şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyətini qəbul edib. Qələbə münasibətilə onlara təbriklərini çatdırıb.

Şahmat üzrə komandamızın indiyədək Avropa çempionatlarında qazandığı kuboklar dövlətimizin başçısına təqdim olunub.

* * *

Bakıda, Heydər Əliyev Mərkəzində Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

**7 noyabr**

Prezident İlham Əliyev Əfqanıstan İslam Respublikasının maliyyə naziri Əklil Əhməd Hakiminin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Dövlət başçısı İlham Əliyev Avropa İttifaqı Şərq Tərəfdaşlığının xüsusi tapşırıqlar üzrə səfirlərindən ibarət nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı avropa İttifaqı ilə əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

**6 noyabr**

Metronun "İçərişəhər" stansiyasında Bakı Metropoliteninin 50 illik yubileyi ilə əlaqədar metropolitendə istismar edilmiş retro vaqonların bərpadan sonra təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev retro vaqonlarla tanış olub.

Ölkə başçısı 50 illik yubileyi münasibətilə Bakı Metropoliteninin kollektivini təbrik edib, yeni-yeni uğurlar arzulayıb.

**3 noyabr**

Prezident İlham Əliyev Fransa Milli Assambleyasının Fransa-Azərbaycan dostluq qrupunun rəhbəri Pyer Alen Rafanı qəbul edib.

Görüşdə ölkələrimiz arasında kosmik sənaye, inşaat, nəqliyyat, su təsərrüfatı, metro, dəmir yolu, hərbi-texniki və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

## Prezident İLHAM ƏLİYEV: Bu gün ölkəmiz dünyada ayaqda möhkəm dayanan ölkə kimi tanınır.

*«Biz bu gün müstəqil siyasət aparan ölkələrdənik. Bunun təməlində bizim həm güclü siyasi iradəmiz və iqtisadi müstəqilliyimiz dayanır. Biz heç kimdən asılı deyilik, öz taleyimiz öz əlimizdədir və müstəqil siyasət aparmaq imkanlarımız, ilk növbədə, iqtisadi imkanlarımızdan qaynaqlanır».*

## İqtisadi yüksəliş və sosial rifah yolu

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi tarixi İpək yolunun bir hissəsidan öz daxili imkanları hesabına bu yolun tikintisini həyata keçirdi. Bununla da ölkələr verən ölkələr - Azərbaycan, Gürcüstan və Türkiyə bundan sonra da daim bir yerdə olaləşməsində çatışmayan bağlantını tamamlayır. Beləliklə, Avropa ilə Asiya arasında da-




nin bərpası deməkdir. Ondan Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Çinin, Qazaxıstanın, Orta Asiya və Avropa ölkələrinin istifadə etməsi olduqca böyük məkanda xalqların bir-birilə sıx əlaqə saxlamasına geniş imkanlar yaradır.

Azərbaycan heç yerdən heç bir yardım və kredit alma- arasında təkcə iqtisadi deyil, çoxtərəfli əməkdaşlığın, gediş-gəlişin, ünsiyyətin artmasına böyük töhfə verdi. Başqa sözlə, bu layihə ölkələri bir-birinə daha da yaxınlaşdıracaq.

Bakı-Tbilisi-Qars dəmir yolunun açılışındakı çıxışında Prezident İlham Əliyev demişdir: "Əminəm ki, regional əməkdaşlığa ən böyük töhfə caqlar, bir-birini dəstəkləyəcəklər. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi kimi nəhəng layihələr bizim birliyimizi, dostluğumuzu daha da möhkəmləndirir".

Bu yol Türkiyənin Mersin limanı vasitəsilə Aralıq dənizi regionuna çıxışı təmin edir, Transavropa və Transasiya dəmir yolu şəbəkələrinin birşımalarda yükün bəndi kimi çıxış edir. Layihənin tarixi İpək yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır. Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

## Konstitusiya-əsas qanunumuz




1991-ci ilin oktyabrında ölkəmizin müstəqillik əldə etməsi bütün siyasi hüquqi, iqtisadi sahələrə aid dövlət aktlarının müstəqil dövlətçiliyə uyğunlaşdırılması zərurətini yaratdı. Bu sırada birinci yerdə təbii olaraq müstəqil dövlətin konstitusiyasını hazırlayıb qəbul etmək məsələsi dururdu.

1993-cü ilin iyun ayında ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra Azərbaycanın hüquqi dövlət statusunu möhkəmləndirmək üçün bütün sahələrdə geniş işlər başlandı.

Ulu öndərin başçılığı ilə yaradılmış Konstitusiya layihəsi 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsinə (referenduma) çıxarıldı və qəbul olundu.

Konstitusiyamizda insan hüquq və azadlıqları əsas yer tutur. Xalq hakimiyyətin mənbəyi kimi təsbit olunur. Əsas qanunumuz qəbul edildikdən sonra bütün hüquqi aktların Konstitusiyamızın müddəalarına uyğunlaşdırılması prosesinə başlandı və bu proses qısa müddətdə təmin olundu.

Konstitusiyamız hazırlanarkən ulu öndər Heydər Əliyev ana diilimizin necə adlandırılması və dövlət dili statusu qazanması mövzusunda ciddi müzakirələrin aparılmasına və Konstitusiyamızda dövlət dilimizin Azərbaycan dili kimi təsbit olunmasına nail oldu. Beləliklə, Azərbaycan dili ölkəmizdə dövlət dilidir. Bu, ulu öndər başda olmaqla xalqımızın böyük uğurudur.

Konstitusiyamıza zamanın tələbinə uyğun olaraq 2002, 2005 və 2016-cı illərdə referendum yolu ilə əlavə və dəyişikliklər edilmişdir.

**Qüdrət SƏMƏDOV.**
**«Qəbələ».**